*Regionların sosial-iqtisadi inkişafı*

# Göyçay: sosial həyatın daha da yaxşılaşdırılmasına qayğı

Rayon kimi təşkil olunduğu vaxtdan onu səksənaltı ildən çox bir tarix ayırır. Ötən illərin olub-keçənlərini xatırlayanların hamısından bir ifadəni eşitdik ki, Göyçay dünən də, bu gün də iftixarla xatırlanan, sabah üçün etibarlı bünövrə yaradan yaddaqalan sosial-iqtisadi inkişaf yolu keçmişdir. Azərbaycan Respublikasının mərkəzində, Şirvan düzünün şimal hissəsində, Böyük Qafqaz dağlarının ətəklərində ünvanlanan Göyçay bir şəhəri, 55 kəndi özündə birləşdirir. İqtisadiyyatı çoxşaxəlidir. Kənd təsərrüfatı, emal sənayesi və sənayenin digər sahələri həmişə rayonun iqtisadiyyatı üçün aparıcı sahələr olmuş, əhalinin sosial rifah halının yaxşılaşdırılmasında mühüm rol oynamışdır. Gəzib gördüklərimizdən, həmsöhbət olub eşitdiklərimizdən aydın oldu ki, rayonda bu gün də iqtisadiyyatın daha da möhkəmləndirilməsi ilə yanaşı, sosial həyatın müasirləşdirilməsi, əhalinin ehtiyaclarının ödənilməsi səviyyəsində qurulması istiqamətində məqsədyönlü tədbirlər keçirilir.

**Rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadə** ilə qısa tanışlıq görüşümüz zamanı aldığımız təəssüratdan da bunu yəqinləşdirdik. 2016-cı ilin ötən dövrünün bəzi sosial-iqtisadi göstəricilərinin statistik təhlili də oxucularda bu barədə aydınlıq yaradar. Bu ilin doqquz ayında rayonda iqtisadiyyatın əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin həcmi 187,7 milyon manat olmuşdur. Bu da ötən ilin eyni dövründəkindən 7 milyon manat çoxdur. Sənaye müəssisələrində bu sahədəki fəaliyyət daha ürəkaçan olmuşdur. Başqa sözlə, keçən ilin qeyd olunan dövrü ilə müqayisədə bu sahədə əldə edilən 31,5 faizi artımın 83,4 faizi qeyri-dövlət bölməsinin payına düşməsi ölkənin digər regionlarında olduğu kimi, Göyçayda da sahibkarlıq fəaliyyətinə geniş meydan verilməsinin nəticəsidir.




Keçmiş Sovetlər birliyi dövründə və Azərbaycanın müstəqilliyinin ötən iyirmi beş ilində də Göyçayda aqrar sahə önəmli yer tutmuşdur. Bu il 37,1 min ton taxıl toplanmışdır ki, bu da ötən ilə nisbətən 659 ton çoxdur. Rayonda 548 ton dən üçün qarğıdalı, 1871 ton kartof, 23109 ton tərəvəz, 520 ton üzüm istehsal olunmuşdur. Heyvandarlıq sahəsi daha dinamik inkişaf etmişdir. Rayonun fərdi təsərrüfatlarında keçən ilin müvafiq dövrünə nisbətən iribuynuzlu mal-qaranın sayı 0,3, xırdabuynuzlu heyvanların sayı 2,4 faiz artmışdır. Keçən ilin müvafiq dövrünə nisbətən ət istehsalı 0,7 faiz, süd istehsalı 0,4 faiz, yumurta istehsalı 1,7 faiz, yun istehsalı 1,1 faiz artmışdır.

Ölkə Prezidentinin kənd təsərrüfatının, konkret olaraq pambıqçılığın və baramaçılığın inkişafı ilə bağlı tapşırıqlarına müvafiq olaraq rayonun kəndlərində istifadəsiz torpaq sahələrində 200 hektar ərazidə çiyid əkilmiş və əvvəlki ildəkinə nisbətən çox pambıq istehsal olunmuşdur. Gəlirli sahə olan baramaçılığın bərpası istiqamətində ilk addımlar atılmış, cari ilin may ayında kümdarlara 475 qram barama qurdu paylanılmış və 1139 kiloqram barama tədarük edilmişdir. Kənd əməkçiləri 2017-ci ilin məhsulu üçün də indi etibarlı bünövrə yaradırlar.

Rayon əhalisinin həyat səviyyəsinin yüksəlməsinin nəticəsidir ki, ticarət və xidmət şəbəkələrindən rayon sakinlərinə 219 milyon manatlıq istehlak malları satılmış, 40,2 milyon manatlıq pullu xidmətlər göstərilmişdir. Rayonda əhalinin sosial həyatının daha da yaxşılaşdırılması üçün digər sahələrdə görülən işlər sabahın daha böyük uğurlarından xəbər verir. Götürək elə əhalinin içməli su ilə təminatını. Bu istiqamətdə müəyyən tədbirlər həyata keçirilmişdir. Göyçay şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidənqurulma layihəsinin ikinci mərhələsində işlər başa çatdırılmış, şəhərdə yaşayan abonentlərə yeni su mənbəyindən içməli su verilişi təmin olunmuşdur. Rayonun Şəhadət kəndinin ərazisində ayrılmış torpaq sahəsində şəhərin çirkab sularını təmizləyən qurğu kompleksində tikinti işləri davam etdirilir. Artıq obyektdə inzibati binanın, transformator və gözətçi buraxılış məntəqəsinin, kompressor binalarının tikintisi əsasən başa çatdırılmış, əraziyə elektrik hava verilişi xətlərini çəkmək üçün elektrik dayaqları quraşdırılmışdır. Əsas tikinti işlərinin cari ilin dekabr ayına kimi, avadanlıqların quraşdırılma və sazlama işlərinin 2017-ci ilin may ayına kimi başa çatdırılması nəzərdə tutulmuşdur.

Kənd yaşayış məntəqələrinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilmiş, rayonun yeraltı içməli su mənbəyi olmayan 6 yaşayış məntəqəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən modul tipli su təmizləyici qurğular istifadəyə verilmişdir. Beləliklə, rayonun 15 kəndində əhalinin içməli suya olan tələbatı modul tipli su təmizləyici qurğular hesabına ödənilir.

Əhalinin elektrik enerjisi və təbii qazla təchizatının yaxşılaşdırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. "Azərişıq" Səhmdar Cəmiyyətinin podratçı təşkilatları tərəfindən 26 müasir tipli transformator məntəqələri inşa edilmiş, 261 ədəd 10 kilovoltluq, 135 ədəd 0,4 kilovoltluq, 1538 ədəd abonent dayağı quraşdırılmış, 100 kilometrə yaxın hava elektrik verilişi xətləri özünü daşıyan izolyasiyalı naqillərlə əvəz olunmuşdur.

Oktyabr ayının birinə kimi rayonun 13 kənd yaşayış məntəqəsinə təbii qaz verilişi bərpa edilmiş və təbii qaz verilişi təmin edilmişdir. Beləliklə, qazdan istifadə edən yaşayış məntəqələrinin sayı 42-yə çatdırılmışdır.

Göyçayda son aylarda tikinti, quruculuq, şəhər təsərrüfatının qaydaya salınması, küçə və meydanların abadlaşdırılması istiqamətində də müəyyən tədbirlər görülmüşdür. Ölkə Prezidentinin 8 oktyabr 2015-ci il tarixli sərəncamına əsasən ayrılmış vəsait hesabına şəhərin mənzil fonduna daxil olan 21, rayon büdcəsinin vəsaiti hesabına isə 7 çoxmənzilli binada əsaslı təmir işləri aparılmışdır. Şəhərin küçələrinin işıqlandırılması istiqamətində tədbirlər davam etdirilmişdir. Göyçayın Ağsu və Ağdaş istiqamətlərindəki giriş hissələrində yenidənqurma tədbirləri həyata keçirilmiş, hər iki ərazidə fərdi layihələr əsasında ünvan göstəricisi inşa edilmiş, ərazi abadlaşdırılmış, yaşıllıqlar salınmış, abadlaşdırılan sahələrə də dekorativ daşlar düzülmüşdür. 2500 nəfər tamaşaçı tutumu olan mərkəzi rayon stadionu tamamilə yenidən qurulmuş, stadionun giriş qapıları dəyişdirilmiş, mühafizə çəpərləri və istinad divarları yenilənərək mişar daşları ilə hörülmüş, qaçış zolaqlarına yeni asfalt örtüyü salınmışdır. Stadionda yeni işıqlandırma sistemi və monitor quraşdırılmış, idman obyektinin sanitar-texniki qovşaqları, tribunadakı oturacaqlar yenilənmişdir. Şəhərin Natəvan küçəsindəki yol dairələri abadlaşdırılmış, şəhər 9 saylı tam orta məktəbin dam örtüyü əsaslı təmir olunmuşdur. Şəhər dindarlarının müraciəti nəzərə alınaraq "Yuxarı məscid"də təmir işləri aparılmış və məscidin ərazisi abadlaşdırılmışdır. Park və xiyabanların, mövcud bağların abadlaşdırılması istiqamətində görülən işlər də ürəkaçandır. Ə.Kərim adına park və şəhidlər xiyabanında lazımi səliqə-sahman yaradılmış, şəhərin bir çox küçələrində yeni çəmənliklər salınmışdır. Şəhər sakinlərinin çoxsaylı müraciətləri nəzərə alınaraq, şəhərin mərkəzində sanitar qovşağı inşa edilmiş və 1 ədəd bioqovşaq quraşdırılmışdır. Kənd yaşayış məntəqələrində də abadlıq, quruculuq işlərinin aparılması, əhalini narahat edən problemlərin aradan qaldırılması istiqamətində bir sıra tədbirlər görülmüşdür.



2016-cı ilin iyun ayının 12-də baş vermiş sel, daşqın zamanı Aşağı Qaraməryəm kəndində Dəvə batan çayı üzərindəki dağılmış körpü yenidən tikilərək kənd sakinlərinin istifadəsinə verilmişdir. Şamaxı-Yevlax respublika əhəmiyyətli avtomobil yolunun Qaraməryəm kəndinin ərazisindən keçən hissəsindəki yol dairələri abadlaşdırılmışdır. Kənddəki bayraq meydanı əsaslı surətdə yenidən qurulmuşdur. Rayonun Çərəkə və Qaraman kəndlərində Qarabağ əlilləri üçün 3 və 2 mənzilli fərdi yaşayış evləri istifadəyə verilmiş, Mallı-şıxlı kənd tam orta məktəbi əsaslı təmir edilmiş, Yeniarx kənd uşaq bağçasında, Potu kənd həkim məntəqəsində cari təmir işləri görülmüşdür. Əkin sahələrinin, yaşayış məntəqələrinin suvarma suyu ilə təminatı, yaşayış məntəqələrinin sel təhlükəsindən mühafizəsi də diqqət mərkəzindədir. Əhalinin məşğulluğunun artırılması, yeni iş yerlərinin açılması və ilk növbədə sosial müdafiəyə daha çox ehtiyacı olan vətəndaşların işlə təmin olunması da diqqət mərkəzində saxlanılır. Oktyabrın birinə kimi 971 yeni iş yeri açılmışdır. Bu iş yerlərindən 486-na rayon məşğulluq mərkəzinin göndərişi ilə sosial müdafiəyə daha çox ehtiyacı olan vətəndaşlar qəbul olunmuşlar.

Sosial yönümdə həyata keçirilən tədbirlər, görülən işlər və bu gün göyçaylılar tərəfindən dəyərləndirilən uğurlar yetərincədir. Göyçaylılara daha böyük uğurlara imza atmalarını, işgüzarlığı və qayğıkeşliyi daha da yaxşılaşdırmaq arzusu ilə söhbətimizə son qoyduq. Yox, tələsməyək, çünki Göyçayın daha gözəl günləri, bizim isə bu günlərə həsr edəcəyimiz neçə-neçə yazılar hələ öndədir.

**Rasim AMANOV,**
**"Respublika".**



